E-1487

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,

üzvlər–S.M.Rəsulova, F.İ.Məmmədov

etiraz ərizəsini verən iddiaçı "Hanes IP Europe S.a.r.l." (LU) */ünvan: 33, Rue du Puits Roman Bertrange, Luxembourg L-8070 (LU)/* nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

05.01.2018 il tarixdə "Hanes IP Europe S.a.r.l." aid "SHOCK ABSORBER" adlı əmtəə nişanının *(2016 32972 saylı iddia sənədi)* 25-ci sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 29.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsi onunla əsaslandırılmışdır ki, 07.12.2016-cı il tarixində "Patent və əmtəə nişanları mərkəzinə" "SHOCK ABSORBER" əmtəə nişanına dair № 2016 32972 saylı iddia sənədi verilmişdir. "SHOCK ABSORBER" əmtəə nişanı 25-ci sinif əmtəələri barəsində iddia edilmişdir- "*Geyim, baş geyimləri; alt paltarı; qadın alt geyimi; trikotaj məmulatları; corablar, uzunboğaz corablar və kolqotkalar; yuxu üçün geyim, məhz pijamalar, kişi gecə köynəkləri, gecə köynəkləri (qadın və ya uşaq) və xələtlər; penuarlar; çimmə kostyumları".* İddia edilmiş əmtəə nişanı "SHOCK" və "ABSORBER" sözlərdən ibarət söz birləşməsini ifadə edir. 29.11.2017 il tarixində ekspertiza "SHOCK ABSORBER" əmtəə nişanını qeydiyyata almaq qərarına gəlmiş, lakin əmtəə nişanı onun ayrı elementlərinə hüquqi mühafizə verilmədən bütövlükdə qeydiyyata alınması barədə qərar vermişdir. İddiaçı ekspertizanın qərarı ilə razı

deyil. İddia edilmiş nişan iddiaçı tərəfindən öz məhsullarının markalanması üçün istifadə olunan vahid və ayrılmaz söz birləşməsidir. Hal-hazırda bildirilmiş nişan əmtəə nişanı kimi Rusiyada, Ukraynada və Qazaxıstanda qeydiyyata alınmışdır. "SHOCK ABSORBER" əmtəə nişanına Rusiyada şəhadətnamə No.389283 verilmiş və nişan 14.09.2009-cu il tarixində 25-ci sinif əmtəələri - *Geyim, baş geyimləri; kişi alt paltarı; qadın alt geyimi; kişi və qadın üçün corablar və kolqotkalar; yuxu üçün geyim, məhz pijamalar, xələtlər; trikotaj məmulatları; çimmə kostyumlar, bodi (qadın geyimi)* barəsində qeydə alınmışdır. "SHOCK ABSORBER" əmtəə nişanına Ukraynada şəhadətnamə No.182514 verilmiş və 25.01.2014-cü il tarixində 25-ci sinif əmtəələri - *Geyim, baş geyimləri, alt paltarı; qadın alt geyimi; trikotaj məmulatları; , uzunboğaz corablar və kolqotkalar; yuxu üçün geyim, məhz pijamalar , qadın üçün xələtlər, hamam xələtləri, gecə köynəkləri, çimmə kostyumları* barəsində qeydə alınmışdır. "SHOCK ABSORBER" əmtəə nişanına Qazaxıstanda şəhadətnamə No.41317 verilmiş və nişan 21.08.2013-cü il tarixində 25- ci sinif əmtəələri - *Geyim, baş geyimləri; alt paltarı; qadın alt geyimi; trikotaj məmulatları; , uzunboğaz corablar və kolqotkalar; yuxu üçün geyim, məhz pijamalar , qadın üçün xələtlər, hamam xələtləri, gecə köynəkləri, çimmə kostyumları, ayaqqabı* barəsində qeydə alınmışdır. "SHOCK ABSORBER" əmtəə nişanına *ABŞ-da* şəhadətnamə No.2,051,795 verilmiş və nişan 15.04.1997-ci il tarixində 25- ci sinif əmtəələri barəsində qeydə alınmışdır. "SHOCK ABSORBER" əmtəə nişanına *Kanadada* şəhadətnamə No.1021749 verilmiş və nişan 15.04.2016-cı il tarixində 25- ci sinif əmtəələri *idman sütunu, çubuqlar, şort, velosiped şortları, nəzarət çantaları, idman zirvələri və qolları* barəsində qeydə alınmışdır. Əlavə olunmuş şəhadətnamələrdən göründüyü kimi qərarın verildiyi zaman qeydə alınmış söz birləşməsinin tərkibində olan ayrı sözlərə disklamasiya verilməmişdir. "SHOCK ABSORBER " əmtəə nişanı digər ölkələrdə də qeydiyyata verilmişdir. Hal-hazırda bu ölkələrdə bildirilmiş nişanın ekspertizası gedir. İddiaçı yuxarıda şərh olunanları nəzərə alaraq və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanunun 15-ci maddəsini rəhbər tutaraq "SHOCK ABSORBER" əmtəə nişanının tərkibində olan ayrı-ayrı sözlərin disklamasiyası haqqında ekspertizanın qeydini yenidən nəzərdən keçirməyi və həmin nişanı onun ayrı-ayrı elementlərinə hüquqi mühafizə verilməklə bütövlükdə qeydiyyata alınmasını Apellyasiya şurasından xahiş etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubovanın çıxışını dinləyib, hesab etdi ki, iddia təmin edilməlidir.

Apellyasiya şurası müəyyən etdi ki, "SHOCK ABSORBER" adlı əmtəə nişanının 25-ci sinif əmtəələri üzrə qeydiyyata alınmasına dair 19.05.2016 il tarixində 2016 32972 nömrəli iddia sənədi "Hanes IP Europe S.a.r.l." (LU) şirkəti tərəfindən patent müvəkkili vasitəsilə Sənaye Mülkiyyəti Obyektlərinin Ekspertizası Mərkəzinə (AzPatent) verilmişdir.

Apellyasiya şurası müəyyən etdi ki, "SHOCK ABSORBER" adlı əmtəə nişanının qeydiyyata alınması haqqında qərar 29.11.2017 tarixində verilmişdir. Həmin qərarın (526) nömrəli kodun altında xüsusi qeydində göstərilmişdir ki, *"Əmtəə nişanındakı "SHOCK ABSORBER" söz birləşməsi ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə edilmədən bütövlükdə qorunur".*

İddiaçı qərarın (526) nömrəli kodun altında xüsusi qeydi ilə razı olmamışdır. İddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova Apellyasiya şurasına etiraz ərizəsini vermişdir.

"Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsində göstərilmişdir ki, ekspertizaların nəticələrinə əsasən əmtəə nişanını və ya coğrafi göstəricinin qeydə alınmasına və ya qeydə almaqdan imtina edilməsinə dair əsaslandırılmış qərar qəbul edilir.

İddiaçı "SHOCK ABSORBER" əmtəə nişanının qeydiyyata alınmasına dair iddia sənədi (2016 32972) verən zaman ərizədə disklamasiya barədə heç bir qeyd etməmişdir. Belə olan halda ekspertiza qərarı müsbət olsa belə, qərarın verilməsindən əvvəl disklamasiya ilə bağlı iddiaçıya bildiriş göndərməli və ona, ekspertizanın nəticəsi barədə bildiriş ilə tanış olaraq cavab vermək (lazım olanda) imkanı yaratmalıdır, çünki ekspertizanın nəticəsi

iddiaçının hüquqlarını məhdudlaşdırır. Həmçinin “SHOCK ABSORBER” söz birləşməsinin disklamasiya ilə bağlı ekspertiza qərarı əsaslandırılmamış və iddiaçıya bu barədə bildiriş göndərməmişdir. Bu isə bilavasitə iddiaçının hüquqlarının məhdudlaşdırılması deməkdir.

Apellyasiya şurası müəyyən etdi ki, “SHOCK ABSORBER” söz birləşməsi ingilis dilindən azərbaycan dilinə “amortizator” (texniki sahədə istifadə edilən termin) kimi tərcümə edilir və 25-ci sinif əmtəələri üzrə uydurma (fantaziya) xarakteri daşıyır.

Apellyasiya şurası hesab edir ki, “SHOCK ABSORBER” adlı əmtəə nişanı (2016 32972 nömrəli iddia sənədi) üzrə 25-ci sinifin əmtəələri üzrə “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin müddəalarına uyğundur və Azərbaycan Respublikasında disklamasiyasız qeydiyyata alınmalıdır.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 1-ci, 4-cü maddələrinin müddəalarını rəhbər tutaraq Apellyasiya şurası

Qərara aldı

1. “SHOCK ABSORBER” adlı əmtəə nişanının (2016 32972 saylı iddia sənədi) 25-ci sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 29.11.2017 il tarixli qərarına qarşı iddiaçının nümayəndəsi patent müvəkkili T.A.Yaqubova tərəfindən Apellyasiya şurasına verilmiş etiraz ərizəsi əsaslı hesab edilsin və iddia təmin edilsin.

2. “SHOCK ABSORBER” adlı əmtəə nişanının *(2016 32972 saylı iddia sənədi)* 25-ci sinifin əmtəələri üzrə qeydiyyata alınmasına dair ekspertizanın 29.01.2017 il tarixli qərarında (526) nömrəli kodun altında xüsusi qeyd “Əmtəə nişanındakı “SHOCK ABSORBER” söz birləşməsi ayrı-ayrılıqda müstəqil hüquqi mühafizə edilmədən bütövlükdə qorunur” etibarsız sayılsın.

3. Həmin Qərarın 1-ci, 2-ci bəndlərində göstərilənləri nəzərə alaraq, Əmtəə nişanları Dövlət reyestrində “SHOCK ABSORBER” adlı əmtəə nişanı (*2016 32972 saylı iddia sənədi)* 25-ci sinifin əmtəələri üzrə qeydiyyata alınsın.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: F.İ.Məmmədov

S.M.Rəsulova